***Şəmkirin son illərdəki uğurları hamını sevindirir. Əhalisinin sayı 209 min nəfəri keçən bu rayon çox inkişaf edib, abadlaşıb, gözəlləşib, müasirliyi və qədimiliyi qorunmaqla füsunkar bir məkana çevrilib. Şəmkir bir sıra çətinliklərə baxmayaraq yola, saldığımız 2015- ci ildə də bütün sahələrdə nailiyyətlər əldə etmişdir. Bunu ötən ilin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş toplantıda hesabat məruzəsi ilə çıxış edən rayon icra hakimiyyətinin başçısı Alimpaşa Məmmədov da xüsusi vurğulamışdır. Bütün sahələrin işinin aydın təhlilini verən və idarə, müəssisə, təşkilat rəhbərləri qarşısında konkret vəzifələr qoyan icra hakimiyyətinin başçısı qeyd etmişdir ki, Azərbaycan Respublikası Regionlarının sosial-iqtisadi inkişafına dair Dövlət Proqramında Şəmkir rayonu üzrə nəzərdə tutulmuş 20 tədbirdən 18-nin icrasına başlanılmışdır.***

# Ötən il qazanılmış uğurlar yeni nailiyyətlər üçün etibarlı zəmin yaradır





2015-ci ildə rayonda 471 milyon 445 min manatlıq ümumi məhsul buraxılmış, adambaşına düşən ümumi məhsul buraxılışının həcmi 2253 manat təşkil etmişdir.

2015-ci ildə 3337 iş yeri açılmışdır ki, bunun da 587-si daimi iş yeri olmuşdur.

Rayonun 2015-ci il üçün yerli gəlir və xərcləri 41 milyon min manat məbləğində proqnozlaşdırılmışdır.

Yerli gəlirlər üzrə 11 milyon 594 min manat proqnoz tapşırığına qarşı 11 milyon 828 min manat vəsait toplanılaraq tapşırığa 102 faiz əməl edilmişdir.

Dövlət büdcəsinin vəsaitlərinin təyinatı üzrə xərclənməsi məsələsi rayon icra hakimiyyəti tərəfindən nəzarətdə saxlanılmış və rübdə bir dəfə büdcədən maliyyələşdirilən təşkilatların və maliyyə qurumlarının iştirakı ilə aşkarlıq şəraitində müzakirə edilərək rayon üçün əhəmiyyət kəsb edən qərarlar qəbul edilmişdir.

Hazırda 2016-cı ilin büdcə vəsaitlərinin proqnozlaşdırılması və təyinatı üzrə xərclənməsi istiqamətində tədbirlər görülür.

Rayonun 2016-cı il büdcəsi ötən illə müqayisədə 1 milyon 934 min 963 manat qənaətlə tərtib olunaraq 39 milyon 66 min 37 manat məbləğində proqnozlaşdırılmışdır ki, onun da 10 milyon 754 min manatı yerli gəlirlərdən daxil olmalar hesabına, qalan 28 milyon 312 min 37 manatı isə mərkəzləşdirilmiş xərclərdən ayrılan vəsait hesabına nəzərdə tutulmuşdur.

Əsas kapitala 80 milyon 223 min manat investisiya yönəldilmişdir. İl ərzində investisiya qoyuluşunun 69 milyon 12 min manatı tikinti-quraşdırma işlərinə ayrılmışdır.

Hesabat dövründə rayon üzrə ümumi sahəsi 58080 kvadratmetr, ümumi dəyəri 28 milyon 130 min manat olan 617 fərdi yaşayış evi tikilib istifadəyə verilmişdir.

Dəyəri 20,5 milyon manat, gündəlik istehsal gücü 50 ton olan Şəmkir çörək zavodunda "Nəfis çörək" brendi altında gündə 38 ton 15 növ çörək məhsulları istehsal olunur. Şəmkir çörək zavodu Şəmkir rayonu ilə yanaşı, respublikamızın Qərb bölgəsində yerləşən digər şəhər və rayonların əhalisini də keyfiyyətli çörəklə təmin edir.

Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramına uyğun olaraq Şəmkir rayonunda abadlıq-quruculuq işləri davam etdirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2014-cü ilin 15 noyabr tarixində Şəmkir rayonuna səfəri çərçivəsində təməlini qoyduğu "Şəmkir Aqroparkı"nın tikintisi davam etdirilmişdir. Hazırda "Şəmkir Aqropark"ında loqistika mərkəzinin çeşidləmə və qablaşdırma kompleksinin, soyuducu anbarın, kiçik laboratoriya məntəqəsinin və vahid pəncərə buraxılış məntəqəsinin tikintisi sürətlə aparılır. İndiyədək bu layihənin icrasına 30 milyon manatdan artıq vəsait sərf edilmişdir.

Şəmkir şəhərinin "Ağ dağlar" adlanan ərazisində Şəmkir bələdiyyəsi tərəfindən təsis edilmiş "Abad Şəmkir" MMC-nin nəzdində "Natural" su və konserv istehsalı zavodunun tikintisinə 2015-ci ilin may ayında başlanılmışdır. Müəssisənin ümumi ərazisi 1,1 hektardır. Layihə sənədlərinə uyğun olaraq ərazidə "Preform" istehsal müəssisəsi, kompresor bölümü, qazanxana, 200 tonluq su hovuzu və anbar binası inşa olunmuşdur. Zavodun su təminatı Şəmkir su anbarından götürülmüş yeni su xəttindən qidalanır. Hazırda 5 dolum xətti fəaliyyət göstərir. Şüşə xəttində saatda 3000 ədəd, plastik xəttində isə saatda 5000 ədəd içməli su qablaşdırılır.

Bundan əlavə, müəssisədə cem, mürəbbə, kompot və turşu istehsal olunur. Burada quraşdırılmış avadanlıqlar Türkiyə və İtaliyadan gətirilmişdir. Zavodda 50 nəfərə yaxın yeni iş yeri yaradılmışdır.

Şəmkir bələdiyyəsi tərəfindən təsis edilmiş "Morul Tikinti" MMC-nin nəzdində tikinti materialları istehsalı müəssisəsinin inşasına 2015-ci ildə başlanılmışdır. Bu məqsədlə Şəmkir şəhərinin "Sərxan" yaşayış massivinin qərb hissəsindən qum-çınqıl və tamet daşı istehsalı üçün torpaq sahəsi ayrılmış, bina və qurğuların tikintisinə başlanılmışdır. Müəssisədə rayon əhalisinin tikinti materiallarına artan tələbatının ödənilməsi məqsədilə yerli xammal materiallarından istifadə etməklə qum-çınqıl, tamet və digər bəzək daşlarının istehsalı nəzərdə tutulmuşdur.

Çinarlı bələdiyyəsinin təsis etdiyi "Çinarlı qəsəbə" MMC-nin nəzdində "Şəmkir səbəti" brendi altında kənd təsərrüfatı məhsullarının satışı üzrə "Yaşıl market" bazarının tikintisinə 2015-ci ildə başlanılmışdır. Layihəyə uyğun olaraq, bazarın tikintisi üçün Bakı-Qazax avtomobil yolunun 399-cu kilometrliyində müəssisəyə məxsus olan 5 hektar torpaq sahəsində əhalinin kənd təsərrüfatı məhsulları faraş meyvə – tərəvəz və bütün növ ərzaq məhsulları ilə təmin etmək üçün milli memarlıq ənənələri əsasında 147 ədəd ağac konstruksiyadan ibarət olmaqla pərakəndə ticarətin təşkili üçün butiklər hazırlanmışdır. Ərazinin baş planına uyğun olaraq ümumi sahəsi 500 kvadratmetrdən ibarət kafe, sahəsi 2000 kvadratmetrə yaxın müasir dizaynlı "Super market", 5 ədəd soyuducu anbar və 3 ədəd sanitariya qovşağı inşa olunmuşdur.

Burada təpəciklər hazırlanmış və üzərinə yaşıl qazon örtüyü salınmışdır. Əraziyə içməli və suvarma su xətti çəkilmiş, 350 kubmetr tutumu olan su anbarı tikilmiş, transformator yarımstansiyası və xüsusi dizaynla işıqlanma sistemi quraşdırılmışdır.

"Şəmkir səbəti" bazarında 150 ədəd orta tonnajlı yük avtomaşınlarının dayanması və topdansatış ticarətin təşkili üçün xüsusi sahə yaradılmış və ətrafı abadlaşdırılmışdır. Yeni yaradılmış "Yaşıl market" bazarında təqribən 350 nəfərə yaxın yeni iş yeri yaradılması nəzərdə tutulmuşdur. Hazırda abadlıq işləri davam edir.

"Zəyəm Texnologiyalar Parkı" ASC-də yenidənqurma işləri davam etdirilmiş, cari ildə həmin müəssisədə yeni istehsal sexlərinin istifadəyə verilməsi nəzərdə tutulmuşdur.

Şəmkir şəhərinin ayrı- ayrı küçələrində abadlaşdırma işləri aparılmış, asfalt örtüyü salınmışdır. Şəhərin "Hərbi şəhərcik" adlanan ərazisində 2014-cü ildə başlanmış abadlıq-quruculuq işləri başa çatdırılmışdır. Bununla da ərazidə yaşayan əhalinin sosial-məişət şəraiti tamamilə yaxşılaşmışdır.

Daxili imkanlar hesabına Yuxarı Seyfəli kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin 4 otaqdan ibarət binası tikilib istifadəyə verilmişdir.

Təhsil Nazirliyi tərəfindən Şəmkir şəhərində Nizami Gəncəvi adına tam orta məktəbin 640 yerlik binası tikilib istifadəyə verilmiş, yerli büdcə vəsaitindən səmərəli istifadə etməklə Çaparlı kənd 2 saylı və Nərimanlı kənd məktəblərinin binaları əsaslı təmir olunmuşdur. Hazırda Çənlibel kənd 1 saylı və Düyərli kənd 1 saylı orta məktəblərdə əsaslı təmir işləri aparılır.

Bundan başqa, daxili imkanlar hesabına Şəmkir şəhərinin S.Vurğun küçəsində yerləşən 4 saylı körpələr evi-uşaq bağçasının yeni binası tikilib istifadəyə verilmiş, Dəllər qəsəbəsində yerləşən 2 saylı körpələr evi-uşaq bağçasının binası əsaslı təmir olunmuşdur.

2015-ci ilin yay aylarında havaların quraq keçməsi ilə əlaqədar əkin sahələrinin su təminatını yaxşılaşdırmaq üçün zəruri tədbirlər görülmüşdür. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin əmri ilə Şəmkir Maşın Kanal İstismarı İdarəsinin bazasında Şəmkirçay su anbarı və magistral kanalların istismarı idarəsi yaradılmışdır. Yeni yaradılmış bu idarənin fəaliyyəti nəticəsində Şəmkir rayonu ərazisində 20,8 min hektar əkin sahələrini suvarma suyu ilə təmin etmək mümkün olmuş, ikipilləli nasos stansiyalarının və magistral kanalların normal işi təmin edilmiş, Ceyrançöl massivində yerləşən İsgəndərli kəndinin və kənd təsərrüfatı müəssisələrinin suya olan tələbatı ödənilmişdir. Lakin Zəyəm çayından götürülən su ilə təchiz olunan Zəyəm qəsəbə, Zəyəm Cırdaxan, Düyərli, Sabirkənd, İrmaşlı, Şiştəpə və Bayramlı kəndlərinin suya olan tələbatının ödənilməsində bir sıra çətinliklər yaranmışdır. Adları qeyd olunan yaşayış məntəqələrinin sakinlərinin çoxsaylı müraciətləri nəzərə alınaraq Zəyəm çayından götürülən suyun itkisiz olaraq kənd əməkçilərinə çatdırılması və həmin bölgədə əlavə subartezian quyularının qazılması barədə Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi qarşısında məsələ qaldırılmışdır. Həmin məsələ ilə bağlı hazırda iş aparılır. Bundan başqa, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Şəmkir rayonu ərazisindən 2016-cı ildə qazılacaq 8 subartezian quyusundan 5-nin bu bölgədə qazılması nəzərdə tutulmuşdur.

Şəmkirçay su anbarından Şəmkir şəhərinə içməli suyun verilməsi 2016-2018-ci illərdə nəzərdə tutulsa da keçən il "Azərsu" ASC-nin rəhbərliyi ilə birgə görülmüş tədbirlər nəticəsində artıq Şəmkirçay su anbarından Şəmkir şəhərinə 16,5 kilometr məsafədə su xətti çəkilmişdir. Bununla da Şəmkir şəhərinin əksər hissəsində əhalinin içməli su problemi həll edilmişdir.

Kür qəsəbəsində çoxmərtəbəli binaların su və kanalizasiya xətləri yenisi ilə əvəz edilmişdir. Hacıalılar kəndində 500 metr məsafədə yeni su xətti çəkilmiş, Çinarlı qəsəbəsində kəhriz quyusu əsaslı təmir olunmuş və Düzqışlaq kəndində 1 ədəd subartezian quyusu qazılaraq əhalinin istifadəsinə verilmişdir.

Bununla yanaşı, il ərzində əhalinin su təchizatında yaranmış problemlərini tam həll etmək mümkün olmamışdır.

Şəmkir şəhərinin su və kanalizasiya sisteminin yenidən qurulması layihəsinin "Akkord" şirkəti tərəfindən ləng icra edilməsi əhalinin narazılığı ilə qarşılanmışdır.

2015-ci ildə digər sahələrdə olduğu kimi, təhsil müəssisələrinin maddi- texniki bazasının möhkəmləndirilməsi, təhsilin keyfiyyətinin yüksəldilməsi istiqamətində tədbirlər davam etdirilmişdir. Azərbaycanın ümumtəhsil sistemində başlanılan və uğurla davam etdirilən islahatlar rayonun təhsil müəssisələrində təlim və tədris prosesinin inkişafına təkan vermişdir. Son illər ərzində rayonun ümumtəhsil məktəblərindən 65-i yenidən tikilmiş və əsaslı təmir olunmuşdur. Yeni tikilmiş 26 məktəb binasından 6-sı Heydər Əliyev Fondunun vəsaiti hesabınadır.

Orta məktəb məzunlarından 1508 nəfəri ali məktəblərə qəbul üçün sənəd vermiş və onların 512 nəfəri respublikamızın müxtəlif ali məktəblərinə qəbul olunmuşdur. 2015-2016-cı tədris ilində respublikamızda ilk dəfə olaraq Şəmkir şəhər Nizami Gəncəvi adına tam orta məktəbdə sağlamlıq imkanları məhdud olan uşaqlar üçün "Distant" təhsil mərkəzi yaradılmışdır. Rayon icra hakimiyyətinin təşəbbüsü ilə 2015-ci il yanvarın 24-dən Şəmkir Rayon Təhsil Şöbəsində Gənc Müəllimlər Birliyi yaradılmışdır. Birliyin yaradılmasında məqsəd rayonun ümumtəhsil məktəblərində çalışan gənc müəllimləri bir araya gətirmək, onların daha sistemli şəkildə fəaliyyət göstərmələrinə şərait yaratmaq olmuşdur.

Bundan başqa Gənc Müəllimlər Birliyi tərəfindən müəllimlərin elektron resurslardan səmərəli istifadəsi üçün müxtəlif fənlər üzrə elektron tədris dəstləri hazırlanmışdır. Birlik, həmçinin tərəfindən müəllim və şagirdlər üçün əhəmiyyət kəsb edən digər layihələr üzərində iş aparır. Azərbaycan Respublikası Prezidentinin 19 sentyabr 2013-cü il tarixli sərəncamı ilə Şəmkir Rayon Mərkəzi Xəstəxanasının tikintisi üçün Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə ilkin olaraq 3 milyon manat vəsait ayrılmışdır. Xəstəxana kompleksinin tikintisi ilə bağlı Şəmkir şəhəri ərazisində torpaq sahəsi ayrılmışdır. Yaxın günlərdə bu obyektin tikintisinə başlanılacaqdır.

Yaponiya səfirliyinin qrantı hesabına İrmaşlı kəndində həkim məntəqəsinin tikintisinə başlanılmış, Atabəy kəndində tibb məntəqəsinin tikintisi nəzərdə tutulmuşdur. Hazırda Kür qəsəbə xəstəxanasında əsaslı təmir işləri davam etdirilir.

Gənc Həkimlər Birliyinin fəaliyyəti də uğurlu olmuşdur. Yarandığı qısa vaxt ərzində birliyin həkimləri tərəfindən rayon sakinlərindən 1521 nəfəri tibbi müayinə olunmuşdur.

Ümumiyyətlə, keçən il rayonun səhiyyə müəssisələrində 1604 nəfər xəstə üzərində uğurlu cərrahiyyə əməliyyatı aparılmışdır.

Səhiyyə sahəsində olan mövcud durum daim rayon icra hakimiyyəti başçısının nəzarətində saxlanılır.

Litva Respublikasının Şaulyay şəhəri ilə Şəmkir şəhərinin qardaşlaşmasına dair imzalanmış müqaviləyə uyğun olaraq 2015-ci ilin iyulunda Şəmkir rayonunun mədəniyyət kollektivlərinin iştirak etdiyi rəsmi nümayəndə heyəti Litva səfərdə olmuşdur.

İl ərzində gənclərlə aparılan işlər öz səmərəsini vermiş, Şəmkir şəhəri 2016-cı ildə "Azərbaycanın Gənclər Paytaxtı" seçilmişdir.

Korrupsiyaya qarşı mübarizə üzrə rayon komissiyasının yeni tərkibi təsdiq edilmişdir.

Rayon icra hakimiyyəti başçısı aparatında təsdiq olunmuş qrafik əsasında 48 ərazi nümayəndəliyində 2015-ci ilin yekunları ilə bağlı hesabat yığıncaqları keçirilmişdir.

Yığıncaqlarda irəli sürülmüş təklif və tənqidi qeydlərin bir hissəsi yerindəcə həll edilmiş, digər məsələlərin həlli ilə bağlı müvafiq tədbirlər planı hazırlanmışdır.

2016-cı ildə Şəmkir rayonunun sosial-iqtisadi inkişafı sahəsində bir sıra mühüm iqtisadi və sosialyönümlü layihələrin və tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

Toplantıda Milli Məclisin deputatları Sona Əliyeva, Kamran Bayramov və Prezident Administrasiyasının məsul işçisi Əlibaba Əliyev çıxış etmişlər. Müzakirə olunan məsələ ilə bağlı qərar layihəsi qəbul olunmuşdur.

Tədbir iştirakçıları sonda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət qəbul etmişlər.

***Hamlet QASIMOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***